# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR

## Noyabr 2010



### YENİ ƏDV PROTOKOLU

Xəzər Dənizinin Azərbaycan Sektorunda Abşeron Dəniz Yatağı Blokunun Kəşfiyyatı, İşlənməsi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişin ƏDV Protokolu təsdiqlənərək Vergilər Nazirliyinin veb-saytına yerləşdirilmişdir.

### 2011-Cİ İL ÜÇÜN EHTİYAC MEYARI VƏ YAŞAYIŞ MİNİMUMU

Azərbaycan Respublikası Prezidenti müvafiq fərmanları ilə 2011-ci il üçün ehtiyac meyarı və yaşayış minimumu haqqında Azərbaycan Respublikasının qanunlarını təsdiq etmişdir.

Qanunlara əsasən, 2011-ci il üçün ehtiyac meyarı 75 manat, yaşayış minimumu isə ölkə üzrə 95 manat, o cümlədən əmək qabiliyyətli əhali üçün 102 manat, pensiyaçılar üçün 72 manat, uşaqlar üçün 76 manat məbləğində müəyyən edilir.

### VİZA PROSEDURLARINDA DƏYİŞİKLİKLƏR

Xarici vətəndaşların Azərbaycana gələrkən giriş vizası alması üçün prosedurlara edilən son dəyişikliklərə əsasən, xarici vətəndaşların Azərbaycanda viza ala biləcəyi hallara bir bənd də əlavə olundu. Dəyişikliklərə əsasən, ərazisində Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri, konsulluqları akkreditə olunmayan və Azərbaycan Respublikası ilə birbaşa hava əlaqəsi olan xarici ölkələrin vətəndaşları viza almaq üçün Azərbaycan Respublikasına gəldikdən sonra müraciət edə bilərlər.

### İNVESTİSİYA FONDLARI HAQQINDA QANUN

İnvestisiya Fondları haqqında Qanunun tətbiq olunması ilə bağlı Azərbaycan Respublikası Prezidenti 12 noyabr 2010-cu il tarixli fərman imzalamışdır.

Fərmana əsasən, Nazirlər Kabineti və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qanunun tətbiq olunması ilə tələb olunan işləri yerinə yetirəcəklər.

### SIĞORTA TARİFLƏRİ

Azərbaycan Respublikasının Nazirlər Kabineti 5 Noyabr 2010-cu il tarixli qərarı ilə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərini müəyyən edir.

Qərarda göstərildiyi kimi, iqtisadi fəaliyyət növündən asılı olaraq, tariflər qulluqçular üçün 0.2% - 0.5% arasında, fəhlələr üçün isə 0.4% - 2% arasında dəyişir.

Bu tariflər əsasında sığorta ayırmaları, tariff dərəcələrinin illik əmək haqqı fonduna vurulması yolu ilə müəyyən edilir.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – "Nexia International"a üzv şirkət**
**SAT Plaza 5-ci mərtəbə, B. Səfəroğlu küç., Bakı AZ1005, Azəbaycan**
**Tel: +994 12 596 69 60 | www.nexia.az**